**Təsdiq edirəm:**
Biznes mühiti və beynəlxalq reytinqlər
üzrə Komissiyanın sədri, Azərbaycan
Respublikası Baş nazirinin birinci
müavini Yaqub Eyyubov

_______________

28.11.2022-ci il

**Dünya Bankı Qrupunun "Əlverişli Biznes Mühiti" layihəsinin "Biznesin yerləşdiyi yer (tikintiyə icazələrin verilməsi)" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin həyata keçirilməsinə dair 2022-2023-cü illər üzrə Yol Xəritəsi**

| Sıra №-si | Alt komponentlərin tələbləri | Görüləcək tədbirlər | Son icra müddəti | İcraçı qurumlar | Məsul şəxslər |
|---|---|---|---|---|---|
| **1. Şəhərsalma üzrə qaydaların keyfiyyəti** | | | | | |
| **1.1. Tikinti qaydaları üzrə qabaqcıl normativ təcrübələr** | | | | | |
| 1.1.1. | Şəhərsalma və tikintiyə dair normativ-hüquqi bazada təhlükəsizlik prinsipləri və yaşıl tikinti qaydalarının tətbiqi | 1. Şəhərsalma və tikinti sahəsində qanunvericiliyin təkmilləşdirilməsi üçün mövcud vəziyyətin araşdırılması və qabaqcıl ölkələrin təcrübəsi öyrənilməklə müvafiq təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.06.2023 | Fövqəladə Hallar Nazirliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | Elbəy Bababəyov, Ağamirzə Canmirzəyev |
| | | 2. Şəhərsalma və tikinti qanunvericiliyində tikintiyə icazələrin verilməsi zamanı tələb olunan tikinti layihəsinin tərkibinin, o cümlədən bina və qurğuların məsuliyyət səviyyəsindən asılı olaraq layihələrin tərkibində abadlaşdırma (yaşıllaşdırma) planlarının tərtib edilməsi ilə bağlı təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim olunması | 01.07.2023 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Fövqəladə Hallar Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi | Ağamirzə Canmirzəyev, Çağrı Kərimzadə, Elbəy Bababəyov, Mübariz Əliyev |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | 3. Şəhərsalma və tikintiyə dair normativ sənədlərin qabaqcıl beynəlxalq təcrübəyə uyğun təkmilləşdirilməsi məqsədilə aidiyyəti qurumlar və sifarişçilər arasında sorğuların keçirilməsi və sorğunun nəticələri əsasında müvafiq strategiya layihəsinin hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.10.2023 | Fövqəladə Hallar Nazirliyi,<br>Dövlət Şəhərsalma və Arxitektura Komitəsi<br>(“Ekvita” şirkəti cəlb edilməklə) | Elbəy Bababəyov,<br>Ağamirzə Canmirzəyev,<br>Çağrı Kərimzadə |
| 1.1.2. | Tikintidə təhlükəsizlik mexanizimlərinin tətbiqi | 1. Bina və qurğuların məsuliyyət səviyyəsi nəzərə alınmaqla tikintiyə dövlət nəzarətinin həyata keçirilməsi qaydalarının, o cümlədən tikinti sahəsində digər nəzarət tədbirləri ilə bağlı mexanizmlərin təkmilləşdirilməsinə dair müvafiq layihələrin hazırlanması və aidiyyəti üzrə təqdim edilməsi | 01.11.2023 | Fövqəladə Hallar Nazirliyi,<br>Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | Zenfira Rzayeva,<br>Çağrı Kərimzadə |
| | | 2. Alt komponentin tələbləri baxımından layihələndirmə və tikinti fəaliyyəti üzrə lisenziyalaşdırmaya dair mövcud normaların və mexanizmin araşdırılması, bu sahədə qabaqcıl beynəlxalq təcrübələrin öyrənilməsi, nəticələri üzrə müvafiq təkmilləşdirmələrə dair təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.07.2023 | İqtisadiyyat Nazirliyi,<br>Fövqəladə Hallar Nazirliyi,<br>Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | Lalə Əkbərova,<br>Elbəy Bababəyov,<br>Elçin Əskərov |
| | | 3. Tikinti obyektinin (yaşayış binasının) istismarına icazə verildikdən sonra daşınmaz əmlak kompleksinin idarə edilməsini, binanın ümumi əmlakının (və onun ayrı-ayrı hissələrinin) istismarına nəzarətin həyata keçirilməsini, o cümlədən kommunal xidmətlər (lift, istilik, abadlıq, yaşıllaşdırma, avtodayanacaq, mühafizə və s.) üzrə qurğu və avadanlıqların təmiri və bərpasını, mühəndis qurğularının və kommunikasiyaların saxlanılması, istismarı, cari və əsaslı təmirini təmin etmək məqsədilə fiziki və hüquqi şəxslərin hüquq və vəzifələrini müəyyən edəcək müvafiq normativ hüquqi akt (qaydaların) layihələrinin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.08.2023 | İqtisadiyyat Nazirliyi,<br>Mənzil İnşaatı Dövlət Agentliyi,<br>Fövqəladə Hallar Nazirliyi,<br>Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | Lalə Əkbərova,<br>Elbəy Bababəyov,<br>Natiq Mehtiyev |
| 1.1.3. | “Yaşıl” binalar və “yaşıl tikinti” ilə bağlı norma və standartlar | “Yaşıl” binalar və “yaşıl tikinti” ilə bağlı beynəlxalq təcrübə araşdırılmaqla ilkin təkliflərin hazırlanması və Komissiyaya təqdim edilməsi | 01.12.2023 | Energetika Nazirliyi,<br>Dövlət Şəhərsalma və Arxitektura Komitəsi,<br>Fövqəladə Hallar Nazirliyi,<br>Ekologiya və Təbii Sərvətlər Nazirliyi | Rauf Qurbanov,<br>Çağrı Kərimzadə,<br>Elbəy Bababəyov,<br>Mübariz Əliyev |

| | | | | | |
|---|---|---|---|---|---|
| **2. Dövlət xidmətlərinin keyfiyyəti və informasiyanın şəffaflığı** | | | | | |
| **2.1. Tikinti icazəsi və ekoloji rəy (lisenziya) üzrə onlayn xidmətlərin mövcudluğu** | | | | | |
| 2.1.1. | Tikintiyə icazə ərizələrinin təqdim edilməsi üçün elektron icazə sistemlərinin olub-olmaması, onlayn ödəniş, onlayn bildiriş, onlayn izləmə, tikinti və istismar icazələrinin onlayn şəkildə verilməsi kimi funksiyalar vasitəsilə aidiyyəti qurumda infrastrukturun keyfiyyətinin qiymətləndirilməsi | 1. Tikinti obyektlərinin tikintisinə və istismarına icazənin verilməsinin tam elektronlaşdırılması ilə əlaqədar müvafiq dəyişiklikləri nəzərdə tutan qanunvericilik layihələrinin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.05.2023 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi (İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi), Fövqəladə Hallar Nazirliyi, yerli icra hakimiyyəti orqanları | Natiq Mehtiyev Kamran Xanlarov, Elbəy Bababəyov |
| | | 2. Regionlarda yerli icra hakimiyyəti orqanları tərəfindən tikinti və istismara icazələrin tam şəkildə elektron sistem vasitəsilə verilməsinin təmin edilməsi | 01.07.2023 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, yerli icra hakimiyyəti orqanları, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi (İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi) | Məmməd Əli Məmmədov, yerli icra hakimiyyəti orqanlarının rəhbərləri |
| | | 3. Tikinti obyektlərinin istismarına icazənin tam rəqəmsallaşdırılması, “bir pəncərə” prinsipinin tətbiqi məqsədilə aidiyyəti orqanlardan sənədlərin toplanması prosesinin “e-tikinti.gov.az” portalı vasitəsilə icra edilməsi, həmçinin ümumi prosesin təkmilləşdirilməsi və xərclərin azaldılması ilə bağlı qanunvericilikdə müvafiq dəyişikliklərə dair layihələrin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.10.2023 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi (İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi), İqtisadiyyat Nazirliyi (Əmlak Məsələləri Dövlət Xidməti), Fövqəladə Hallar Nazirliyi, Mənzil İnşaatı Dövlət Agentliyi, Səhiyyə Nazirliyi (Respublika Gigiyena və Epidemiologiya Mərkəzi), Ekologiya və Təbii Sərvətlər Nazirliyi | Məmməd Əli Məmmədov, Kamran Xanlarov, Lalə Əkbərova |
| | | 4. Bina İnformasiya Modelləşdirilməsinə (BİM) keçidlə bağlı strategiyanın və dövlət vəsaiti hesabına inşa edilən obyektlərdə “BİM”in tətbiqinə dair təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.11.2023 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Fövqəladə Hallar Nazirliyi, tikinti icraatında iştirak edən digər bütün qurumlar | Eldar Salahov, Çağrı Kərimzadə, Cahangir Məmmədrzayev, Zenfira Rzayeva, işçi qrupun digər üzvləri |

| 2.2. Tikintiyə icazə sistemlərinin qarşılıqlı fəaliyyəti | | | | | |
|---|---|---|---|---|---|
| 2.2.1. | Bələdiyyələr, tikintiyə icazəyə məsul qurumlar, kadastr, tikintiyə icazə prosesində iştirak edən bütün dövlət qurumları, habelə torpaq reyestrləri və kommunal xidmət təminatçıları kimi agentliklər arasında məlumat mübadiləsinin qiymətləndirilməsi | 1. Tikinti icraatında iştirak edən bütün qurumların aidiyyəti xidmətlərinin "e-tikinti.gov.az" portalına inteqrasiyasının təmin edilməsi | 01.12.2023 | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi (İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi), Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, tikinti icraatında iştirak edən digər bütün qurumlar | Kamran Xanlarov, işçi qrupun digər üzvləri |
| | | 2. Daşınmaz əmlakın kadastrı və dövlət reyestri sisteminin "e-tikinti.gov.az" portalına inteqrasiyası üzrə işlərin tamamlanması | 01.10.2023 | İqtisadiyyat Nazirliyi (Əmlak Məsələləri Dövlət Xidməti), Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi (İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi), Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | Aqşin Məcidov, Lalə Əkbərova, Kamran Xanlarov |
| | | 3. Tikinti icraatında iştirak edən qurumlarda İT infrastrukturunun səviyyəsi və kadrların müvafiq sistemlərdən istifadə bacarıqlarının qiymətləndirilməsi və nəticələri üzrə müvafiq hesabatların hazırlanması, İT infrastrukturunun yenilənməsi və kadrların hazırlıq səviyyəsinin yüksəldilməsi imkanlarının araşdırılması | 01.12.2023 | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi (İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi), tikinti icraatında iştirak edən digər qurumlar | İşçi qrupun aidiyyəti üzvləri |
| | | 4. Milli Məkan İnformasiya Sisteminin, eləcə də aidiyyəti qurumlar və inzibati-ərazi vahidləri üzrə Coğrafi İnformasiya Sistemlərinin (CİS) yaradılması, bu sistemlərin və şəhərsalma və tikinti fəaliyyətinin vahid informasiya təminatı sisteminin qarşılıqlı inteqrasiyasının təmin edilməsi | 01.12.2023 | İqtisadiyyat Nazirliyi (Əmlak Məsələləri Dövlət Xidməti), Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi (İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi), tikinti icraatında iştirak edən digər bütün qurumlar | Aqşin Məcidov, Lalə Əkbərova, Məmməd Əli Məmmədov, işçi qrupun digər üzvləri |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | 5. Tikinti sahəsində peşəkarlıq reyestrinin yaradılması, onun şəhərsalma və tikinti fəaliyyətinin vahid informasiya təminatı sisteminə inteqrasiyasının təmin edilməsi | 01.12.2023 | Fövqəladə Hallar Nazirliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi (İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi) | Zenfira Rzayeva, Məmməd Əli Məmmədov |
| | | 6. Məlumatlandırma icraatı çərçivəsində tikintisi başa çatmış obyektlər üzrə məlumatların və istismarına icazə verilmiş obyektlər üzrə istismara icazələrin daşınmaz əmlakın dövlət qeydiyyatını aparan orqana avtomatik göndərilməsini ehtiva edən müddəaların qanunvericilikdə əks etdirilməsinə dair təkliflərin hazırlanması və aidiyyəti üzrə təqdim edilməsi | 01.07.2023 | İqtisadiyyat Nazirliyi (Əmlak Məsələləri Dövlət Xidməti), Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Fövqəladə Hallar Nazirliyi | Lalə Əkbərova, Kamran Xanlarov, Zenfira Rzayeva |
| **2.3. Tikinti icazəsi və ekoloji rəy (lisenziya) üzrə informasiyanın şəffaflığı** | | | | | |
| 2.3.1. | Tikintiyə icazə verən qurumların şəffaflıq və əlçatanlıq dərəcəsinin qiymətləndirilməsi | 1. “E-tikinti.gov.az” portalı vasitəsilə tikintiyə icazə, tikintinin aparılması, tikinti materiallarına olan tələblər, tikintiyə nəzarətin həyata keçirilməsi ilə bağlı qaydaların ictimaiyyətə aydın şəkildə təqdim edilməsi | Mütəmadi | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Fövqəladə Hallar Nazirliyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi (İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi) | Fərhad Məmmədov, Zenfira Rzayeva |
| | | 2. “E-tikinti.gov.az” portalında yerləşdirilən statistik məlumatların tərkibinin genişləndirilməsi, o cümlədən yerli icra hakimiyyəti orqanları tərəfindən tikintisinə və istismarına icazə verilən, məlumatlandırma icraatı çərçivəsində tikilən obyektlərə, habelə bu tikililərlə bağlı binaların əsas texniki-iqtisadi göstəricilərinə dair məlumatların rəsmi internet səhifələrində yerləşdirilməsi | 01.12.2023 | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi (İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi), yerli icra hakimiyyəti orqanları, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | Əmiraslan Həsənov, yerli icra hakimiyyəti orqanlarının rəhbərləri |
| | | 3. Tikintiyə və istismara icazələrin verilməsi sahəsində tətbiq edilən elektron sistemin imkanları ilə bağlı ictimaiyyətin məlumatlandırılması | Mütəmadi | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, tikinti icraatında iştirak edən digər bütün qurumlar | Gülbəniz Əliyeva, işçi qrupun digər üzvləri |

| | | | | | |
|---|---|---|---|---|---|
| **3. Biznes məkanının əldə olunmasında əsas xidmətlərin səmərəliliyi** | | | | | |
| **3.1. Tikinti ilə əlaqədar icazələrin əldə olunması vaxtı və xərcləri** | | | | | |
| 3.1.1. | Müraciətlərin ilkin təsdiq prosesindən yerli icra orqanına təqdim olunana qədər tikinti və istismar üçün icazə almaq tələblərinə əməl edilməsinin asanlığının qiymətləndirilməsi | 1. Tikintiyə və istismara icazələrin alınmasının asanlığı ilə bağlı mövcud qanunvericiliyin araşdırılması, tələb olunan prosedur, vaxt və xərclərin optimallaşdırılması məqsədilə təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.06.2023 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Fövqəladə Hallar Nazirliyi, İqtisadiyyat Nazirliyi (Əmlak Məsələləri Dövlət Xidməti), tikintiyə icazə icraatında iştirak edən digər qurumlar | Fərhad Məmmədov, Elbəy Bababəyov, Lalə Əkbərova |
| | | 2. Tikintisinə icazə tələb olunan obyektlər üçün tikintiyə və istismara icazələrin, habelə daşınmaz əmlaka dair çıxarışların verilməsinə dair konkret addımları müəyyən edən təlimatların layihələrinin hazırlanması və aidiyyəti üzrə təqdim olunması | 01.08.2023 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Fövqəladə Hallar Nazirliyi, İqtisadiyyat Nazirliyi (Əmlak Məsələləri Dövlət Xidməti) | Fərhad Məmmədov, Elbəy Bababəyov, Lalə Əkbərova |
| | | 3. Tikinti obyektlərinin müvafiq kommunal və rabitə xidmətləri ilə təchiz edilməsi üzrə mövcud xidmət xərclərinin təhlil edilməsi, onların hesablanmasına dair qanunvericilik aktlarının təkmilləşdirilməsi üçün qabaqcıl təcrübənin araşdırılması və müvafiq təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.08.2023 | İqtisadiyyat Nazirliyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, “Azərsu” ASC, “Azərişıq” ASC, “Azəriqaz” İB | Lalə Əkbərova, Natiq Quliyev, Elsevər Rüstəmli, Mikayıl Cəbrayılov |
| | | 4. Tikintinin tamamlanmaması risklərinin qarşısının alınması məqsədilə çoxmənzilli yaşayış binalarının sifarişçilərinin maliyyə dayanıqlılığının təhlili meyarlarının müəyyən olunması və sığorta mexanizmi ilə bağlı müvafiq təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.10.2023 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, İqtisadiyyat Nazirliyi ( o cümlədən Dövlət Vergi Xidməti), Fövqəladə Hallar Nazirliyi | Elqar Kərimov, Malikə Maqsudova Müzəfərli, Lalə Əkbərova, Elbəy Bababəyov |
| **3.2. Ətraf mühitlə əlaqədar icazələrin əldə olunması vaxtı və xərcləri** | | | | | |
| 3.2.1. | Orta dərəcədə ekoloji risk daşıyan tikililər üçün tikinti ilə bağlı bütün ekoloji icazələrin alınması qaydalarının və dövlət xidmətlərinin səmərəliliyinin qiymətləndirilməsi | 1. Tikintiyə icazələrin verilməsi zamanı ekoloji rəylərin verilməsi və ekspertizanın aparılması ilə bağlı mövcud qanunvericiliyin təkmilləşdirilməsinə dair təkliflərin hazırlanması və aidiyyəti üzrə təqdim edilməsi | 01.06.2023 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Fövqəladə Hallar Nazirliyi | Mübariz Əliyev, Çağrı Kərimzadə, Elbəy Bababəyov |
| | | 2. Tikinti layihələrində və tikintinin həyata keçirilməsində ekoloji tələblər barədə mövcud qanunvericilik müddəalarına dair xüsusi məlumatlandırıcı və maarifləndirici tədbirlərin təşkil edilməsi | Hər rüb | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi | Mübariz Əliyev, Gülbəniz Əliyeva |